Türküstan №9 3 - 9 mart 2026-cı il



# Azərbaycan milli mətbuatının banisi Həsən bəy Zərdabi





Elşən Mirişli

Gəncə şəhəri, tarixçi

### V Yazı

***Heç bir maddi imkanı olmayan kəndli yazdırdığı ərizəyə görə Həsən bəyin cibinə 3-4 rubl pul basmağa çalışanda o deyirdi: "Bax, "Tərcüman" qəzetinin illik abunəsi də 3 rubldur.Yaxşısı budur, bu pulu ver,qəzetə abunə yazıl,oxuya bilirsənsə, özün oxu, ya da ver molla məsciddə hamı üçün oxusun".***

Zərdabda keçirdiyi 16 ildən sonra Həsən bəy Bakıda gənc ictimai xadimlərin bütöv nəsli ilə sevinclə görüşdü.Artıq əla pedaqoq kimi şöhrət qazanmış müəllimlər vardı,dəmirçinin oğlu bütün şəhərdə tanınan həkim olmuşdu və sairə.İndi tələbə gimnazistlər tək-tük deyil, onlarla idi.Həsən bəy bu gənc qüvvələrə böyük məhəbbətlə yanaşırdı.Şöhrət yox,xalqa xidmət qayəsi ilə çalışan gənclər də Həsən bəyin simasında öz mənəvi atalarını görürdülər.

Gənclərin fəaliyyətinə ürəkdən sevinən Həsən bəy onların bütün təşəbbüslərinə qoşulur, məsləhət və konkret işlə yardımını əsirgəmirdi.

90-cı illərdə ictimai fəaliyyət üçün dərnəklər və xeyriyyə cəmiyyətləri yaranmağa başlamışdı.İlk belə cəmiyyəti 70-ci illərdə böyük çətinliklər bahasına Həsən bəyin özü yaratmışdı. "Həyat" qəzetinin 28 dekabr 1905-ci il tarixli nömrəsində bu cəmiyyətin fəaliyyəti barəsində geniş söhbət açılmışdı. iraətxanalar,kitabxanalar, nümunəvi məktəblər yaradıldı, müəllimlərin birinci qurultayı keçirildi.Həmin qurultayda qanıqaralıq yaradan hadisə baş verdi.Tanınmış ictimai xadimlərdən biri hökumətə qurultayın qətnaməsini qəbul etmək "tələbi" ilə müraciət təklifini irəli sürdü.Həsən bəy ona cavab verib dedi: "Biz hələ "tələb etmək" səviyyəsinə yüksəlməmişik,biz hələlik "xahiş edə bilərik".Bu cür düşünülməmiş "tələblər" ancaq işimizi korlaya bilər".Səs-küy salmaq,özlərini göstərmək üçün fürsət axtaran adamlar Həsən bəyin sözlərini onun hökumətə sədaqətlə xidmət etmək arzusu kimi qiymətləndirmişdilər.Lakin Həsən bəy yarınmaq üçün yaranmamışdı, o, həmişə "tələb etməli" hədəsi olmadan da, səs-küysüz və adasız hökumətdən bacardığını alırdı.

1897-ci ildə kürəkəni Ə. Topçubaşovun Hacı Zeynalabdin Tağıyevdən icarəyə götürdüyü "Kaspi" qəzetinin redaksiyasında Həsən bəy Zərdabi hamıdan çox çalışırdı.Məlum səbəblərə görə türk dilində mətbuat yaratmaq arzusu baş tutmamışdı.Odur ki,Həsən bəy və Topçubaşov "Kaspi" səhifələrində senzura tələbləri çərçivəsində müsəlmanların mənafeyinə mümkün qədər xidmət etməyə çalışırdılar.Burada da Həsən bəy Zərdabinin yazıları baş məqalə kimi çap olunurdu. Son dərəcə populyar elmi məqalələrdən başqa Həsən bəy bütün ömrü boyu xalqın həyatını işıqlandırmayan, onun ehtiyaclarından bəhs etməyən bircə sətir də yazmamışdı.Müsəlman maarifçiliyinin mərkəzi kimi olduğu illər ərzində o,həmişə şəhər həyatı ilə bağlı məsələlərə hədsiz vicdan və düzgünlüklə yanaşmışdı.Bakının keçmiş bələdiyyə rəisi Rayevski Həsən bəyin dəfnində demişdi: " Şəhər Dumasının iclaslarında Həsən bəyin nitqləri və çıxışları olmasaydı, mən Bakının özünüidarə məsələlərindən qətiyyən baş çıxara bilməzdim".Şəhər idarəsində Həsənbəy həmişə məktəb komissiyasının üzvü olmuşdu.İbtidai şəhər məktəblərinin yaradıcısı da o idi.Həmin məktəblər üçün Həsən bəy əlindən gələni əsirgəmirdi (bu bəzən ikinci dərəcəli məktəblərin ziyanına olurdu). Bakıda və Tiflisdə Politexnikum açılması və bu məqsədlə külli miqdarda maliyyə vəsaiti ayrılması barəsində Dumada məsələ qaldırılanda Həsən bəy demişdi: "Qoy şəhər idarəsi əhalinin yoxsul təbəqələri üçün daha çox ibtidai məktəblər, kənd təsərrüfatı və peşə məktəbləri açsın. Tiflisdəki Politexnikum üçün tələb olunan yüz minləri isə qoy Neft sahibkarları İttifaqı, Qukasovlar,Xatisovlar,Mantaşevlər və başqaları versinlər.Politexnikumda dəmirçi İvanın, yaxud dartaycı Abdullanın yox, onların uşaqları oxuyacaqlar".Şəhərə su çəkilməsi məsələsi müzakirə olunanda Həsən bəy xüsusən xoşagəlməz hallarla üzləşməli olmuşdu. Ambarsum Məlikov şəhərə suyu bilavasitə özünün Zuğulbadakı mülkündən gətirmək istəyirdi. Bu su isə içməyə yararlı deyildi.Təbii ki,özünü hər hansı məşədiyə,yaxud kərbalayıya tay bilməyən ali təhsilli ziyalı Ambarsum Məlikov Həsən bəyə 8 min rubl rüşvət gətirmişdi ki, təki o Zuğulbadakı su mənbəyi haqqında sussun, nə xeyrinə, nə də ziyanına bir kəlmə danışsın.Həsən bəy bu erməninin bu həyasız təklifindən bütün varlığı ilə təhqir olunmuşdu, ona rüşvət təklif edən Məlikovu qovmuşdu.O, Zuğulbadan çəkilən su kəmərinin əleyhinə bacardığını etsə də, şəhər Dumasında müəyyən rüşvətlə fırıldaqlar işləndi və həmin kəmər çəkildi.Şəhər ərazisindəki neft kəmərlərinə vergi qoyulması məsələsi müzakirə olunanda da Həsən bəy susmamış və həqiqətpərəstliyi müqabilində belə sözlər eşitmişdi: "Lütün biri lüt,cibində bir qəpik yoxdur,amma cibimizə əl uzadır.Xeyirxahlıq göstəriblər,qlasnı seçiblər, ara yerdə 125 rubla yiyə duran yoxdur (Həsən bəy qlasnı kimi şəhər Dumasında müftə çalışırdı),o isə bizim əleyhimizə çıxır".Neft kəməri sahiblərinin əksəriyyəti Dumanın qlasnısı idi.

***Bakı Dumasında Tramvay məsələsi müzakirə olunanda daha çox qanıqaralıq yaranmışdı.Şəhərin yeganə nəqliyyat vasitəsi-konka hamının yaxşı tanıdığı varlıların əlində idi.Varlılar konkadan yaxşıca qazanc götürürdülər,odur ki,gəlir mənbələrini itirmək istəmirdilər.Hər dəfə konkanı tramvayla əvəz etmək məsələsi Dumanın gündəliyinə çıxarılanda qlasnılar bir bəhanə ilə işi gələn dəfəyə saxlayır,ya da müzakirəni pozurdular.Həsən bəy yaxşı bilirdi ki, qlasnılar istəsələr, konkadan gəlir götürən varlıların acgözlüyündən başqa qalan məsələləri çox asanlıqla dəf edə bilərlər.Ona görə də alovlu nitqlər söyləyirdi, utandırırdı, konka sahiblərinin abrını ətəyinə bükürdü.Lakin necə deyərlər,tək əldən səs çıxmaz.Dumanın iclaslarında həmin məsələ yenidən müzakirə olunanda ona sadəcə söz vermirdilər, şəhər isə arıq, əfəl atların qoşulduğu konkalardan xilas ola bilmirdi.***

Qəzet və şəhər Dumasındakı işi ilə bir sırada o, müsəlmanların ictimai fəaliyyətinin ən xırda təzahürlərini də nəzərdən qaçırmırdı.1905-ci il inqilabından sonra sayı artan qəzetlərə,onların naşir və redaktorlarına, kütlənin mədəni səviyyəsini yüksəldən xalq müəllimlərinə, yaradıcılığa yeni başlamış yazıçılara, mətbəə işçilərinə demək üçün Həsən bəyin həmişə səmimi,xoş sözləri,gərəkli məsləhətləri vardı.Həsən bəy onların uğurlarını həmişə diqqətlə izləyirdi.Xalq mahnılarının ilk məcmusunu çap etdirən Həsən bəy ( onun topladığı atalar sözləri işıq üzü görmədi) dönə-dönə gənc ədəbi qüvvələri xalq ədəbiyyatı sərvətlərini-mahnıları, nağıllları,atalar sözlərini və sairəni toplamağa çağırırdı.Bütün həyatını xalqa sərf edən Həsən bəyin dilindən bir dəfə də olsun xalq üçün təhqiramiz və ictimai xadimin özü üçün nəlayiq olan belə sözlər eşidilməmişdi: "Müsəlman kütləsi üçün dərindən –qabıqdan çıxmağa layiq deyil. Çünki əməyini qiymətləndirməyəcək". Əksinə o, həmişə deyirdi: "Öz işinə qiymət-yəni mükafat umma, səni şöhrətləndirəcəklərini düşünmə.Xalq üçün işlə,onda o özü sənin ardınca gələcək və qiymətləndirəcək. Amma bunun üçün əvvəlcə xalqın inamını qazanmaq lazımdır".Həsən bəy Zərdabi bütün ömrü boyu əməyinin necə qiymətləndirilməsi ilə maraqlanmadan çalışmışdı.

Onun işini davam etdirən gənclik Həsən bəy üçün öz doğma balalarından əziz idi. Rusiya İmperiyasındakı (1721-1917) müsəlman həyatından naşı qələmlə yazılmış ilk səhnəciklər belə onu hədsiz sevindirirdi.Nə qədər ki,ayaqları hərəkətdən qalmamışdı, o, gənc türk truppasının tamaşalarından birini də buraxmırdı.Yəqin ki, ilk bəstəkarımız Üzeyir Hacıbəyov "Kaspi" qəzetinin redaksiyasında xəstə Həsən bəyin ona dediyi aşağıdakı sözləri xatırlayır: "Sən elə tamaşa yaz ki,orada iştirak edənlər oxusunlar".Skleroz xəstəliyinə tutulmuş Həsən bəyi teatra buraxmaq olmazdı,lakin o,nəyin bahasına olursa olsun, ilk türk operasına qulaq asmaq istəyirdi.

1905-ci ildə, ermənilərlə türklər arasındakı ədavətin dəhşətli və kədərli günlərində Həsən bəy bu düşmənçiliyin hər iki millət üçün məhvedici olduğuna kütləni inandırmaq üçün bütün natiqlik məharətini sərf etmişdi.O,açıq-aşkar deyirdi ki,bu ədavət əslində Rusiya İmperiyası hökumətinin fırıldağıdır.Maarifin adamları birləşdirmək üçün ən yaxşı qüvvə olduğunu bilən Həsən bəy türklərin və ermənilərin birgə oxuduqları məktəblər açmaq ideyası ilə çıxış edirdi.

1905-ci ildə iş qabiliyyətini itirməsinə baxmayaraq Həsən bəy həyatının son gününə qədər "Kaspi" redaksiyasını tərk etməmişdi. Dumaya sonuncu seçkilər keçiriləndə o,ağır skleroz xəstəliyinə tutulmuşdu.Lakin heç kəs Həsən bəyə bu vəziyyətdə öz namizədliyini irəli sürməyin lüzumsuzluğu barəsində bir kəlmə də deməyə cürət etmirdi.Seçki günü o da səsverməyə qoşulmuşdu.Ancaq aydındır ki, Həsən bəyin adını pozmuşdular.Bunu ondan gizlədirdilər. Həsən bəy isə hey "Dumanın iclasına getmək lazımdır"-deyə inad edirdi və hər dəfə onu evdə saxlamaq üçün əzab-əziyyət çəkirdilər.

Həsən bəy 1907-ci il noyabrın 28-də,çərşənbə günü vəfat etdi.Hamının dilə tutmasına baxmayaraq ölümü ərəfəsində o, "Kaspi" redaksiyasına getmişdi.Öz xalqını sonsuz məhəbbətlə sevən və fədakar olan zəhmət adamı haqq dünyasına qovuşmuşdu.Həsən bəy Zərdabi fiziki dünyadan ayrılıb əbədi dünyaya keçmişdi.

Həsən bəy Azərbaycanın ilk marifçi qadınlarından biri olan Hənifə xanım Məlikova ilə ailə qurmuşdu.Hənifə xanım Aslan bəy qızı Məlikova-Abayeva 1856-cı il mayın 5-də Şimali Qafqazda Nalçikdə doğulmuşdu.Azərbaycanın ilk maarifçi qadınlarından olan Hənifə xanım Tiflisdə Müqəddəs Nina Qız Məktəbində təhsil alıb.Həsən bəy Zərdabinin tək həyat yox,mübarizə yoldaşı idi.1875-1877-ci illərdə onlar "Əkinçi" qəzetinin nəşrində çox böyük əziyyətlər çəkiblər.Zərdabda yaşadıqları dövrdə-1880-ci ildən başlayaraq öz mənzillərində pulsuz məktəb açdılar.Hənifə xanım Bakıda məşhur "Nicat" cəmiyyətinin qadın bölməsinin yaradıcılarından biri, Bakıda ilk qız məktəbinin təməlini qoyanlardan biri kimi tarixə düşüb.1901-1905-ci illərdə Bakıda ilk müsəlman qız məktəbinin müdiri işləyib.1909-cu ildən 1919-cu ilədək-düz 10 il Bakı şəhər Rus-Tatar (yəni Rus-Azərbaycan) Qız Məktəbində müdir vəzifəsində çalışıb. 1920-1926-cı illərdə Azərbaycan Xalq Maarif Komisarlığında məsul vəzifədə işləyib.

Hənifə xanım Məlikova- Abıyeva 1929-cu ildə 2 mayda 72 yaşında Bakıda vəfat edib.Əvvəl şəhər qəbiristanlığında dəfn edilmiş,sonralar cənazəsi həyat yoldaşı Həsən bəy Zərdabinin məzarının yaxınlığına- Fəxri Xiyabana köçürülmüşdür.

Onların ailəsində dörd qız övladı (Pəri xanım Məlikova (Topçubaşova), Fatimə xanım Məlikova,bir yaşına çatmamış vəfat edən üçüncü qız və sonbeşik qızları Qərib Soltan xanım Məlikova),iki oğul övladı (Midhət bəy Məlikov və Səffət bəy Məlikov ) olmuşdur.

### Pəri xanım Topçubaşova-Həsən bəy Zərdabinin qızı

***Pəri xanım 1873-cü ildə Bakıda anadan olub.Pəri xanım müəllimə idi.Həsən bəy Zərdabinin böyük qızı Azərbaycanın ilk parlamentinin sədri olmuş Əlimərdan bəy Topçubaşovla 1893-cü ildə 31 dekabrda Tiflis şəhərində ailə qurub. Onun atası olan Zərdabi çox mütərəqqi ziyalı olmasına baxmayaraq, qızı üçün Topçubaşovdan 10 min rubl başlıq pulu istəmişdi.Amma Topçubaşov bu qədər pulu olmadığından o və Pəri xanım toy mərasimi keçirməməyi və qənaət olunan pulu Həsən bəyə verməyi qərara almışdılar.Pəri xanım Topçubaşovanın 5 övladı olmuşdur. Onlardan dördü-oğulları Ələkbər bəy, Ənvər bəy Topçubaşov, qızları Sara xanım Sultanoğlu,Sevər xanım Topçubaşova anaları ilə birlikdə Əlimərdan bəy Topçubaşovun dəfn mərasimində iştirak ediblər.Pəri xanım Fransada mühacirətdə olmuş və 1947-ci ildə orada dünyasını dəyişmiş, Paris yaxınlığında Sen-Klu məzarlığında, həyat yoldaşı Əlimərdan bəy Topçubaşovun yanında dəfn olunub. Bu ailənin beşinci övladı haqqında ətraflı məlumat yoxdur.***

**(ardı var)**